**Kazus**

27 iyul 2005-ci ildə ərizəçi yol polisi tərəfindən sürəti aşdığı üçün saxlanıldı. 5 sentyabr 2005-ci il qərarına əsasən yol polisi yerində 4 avro civarındakı məbləğə ekvivalent miqdarda cərimələdi. Ərizəçi polisin qərarına etiraz etmədi. Ərizəçi cəriməni ödəmədiyi üçün, İnzibati Xətalar Məcəlləsinin 26-cı Maddəsinin 5-ci paraqrafına əsasən cərimənin 30 günlük inzibati həbslə əvəz olunması üçün Rayon Məhkəməsinə qeyri-müəyyən bir tarixdə təqdimat verildi. Təqdimata uyğun olaraq ərizəçi cəriməni 28 fevral 2006-cı il tarixinə kimi ödəməli idi, lakin o bunu etmədi və beləliklə də, o, pis niyyətlə hərəkət etdi.

26 may 2006-cı il tarixində tərəflərin iştirakı olmadan məhkəmə iclası keçirildi və Rayon Məhkəməsi təqdimatı təmin etdi və ərizəçinin 30 günlük həbs cəzası çəkməli olduğunu qərara aldı. Məhkəmənin qərarını əks etdirən sənəd əvvəlcədən çap edilmiş şablon idi, hansını ki, hakim işin xüsusi hallarını (məsələn ərizəçinin adı və ünvanı, aidiyyatı tarixlər, cərimənin məbləği və ərizəçi tərəfindən çəkiləcək həbs günlərinin sayı) öz xətti ilə yazmışdı. Sənəddə ərizəçinin məhkəmə iclasının vaxtı və yeri barədə məlumatlandırılnasına dair qeyd yox idi.

12 iyun 2006-cı il tarixində səhər saat 8-də ərizəçi evində həbs olundu və həbsxanaya yerləşdirildi. Həmin gün təxminən 17.00-a kimi o ürək ağrısından əziyyət çəkdi və təcili tibbi yardım vasitəsilə hospitala aparıldı. Bundan sonra o orada sağaldı və tezliklə hospitaldan çıxarıldı. Buna baxmayaraq, ərizəçi cəzanın qalan hissəsini çəkmədi.

16 iyun 2006-cı il tarixində ərizəçi 26 may 2006-cı il tarixdə keçirilmiş məhkəmə iclası barədə xəbərdar edilmədiyinə görə Rayon Məhkəməsinin 26 may 2006-cı il tarixli qərarına qarşı appelyasıya verdi və həbsdən öncə onun 26 may 2006-cı il tarixli qərardan xəbəri olmadığını və təcridxanaya yerləşdirilmədən öncə məhkəmə qərarına qarşı etiraz edə bilmək şansının verilmədiyini bildirdi. Ərizəçi həmçinin bildirdi ki, yol polisinin sürəti aşmaya görə cərimənin tətbiqi ilə bağlı 5 sentyabr 2005-ci il tarixli qərarı təhqiramiz idi, çünki polisin sürəti aşmanı aşkar edən maşının ona məxsus olması ilə bağlı heç bir sübutu yoxdur.

30 avqust 2006-cı il tarixində Appelyasiya Məhkəməsi ərizəçinin yol polisinin 5 sentyabr 2005-ci il qərarına qanunla müəyyən edilmiş vaxt çərçivəsində etiraz etmədiyini bildirərək ərizəçinin şikayətini rədd etdi. Appelyasiya Məhkəməsi ərizəçinin 26 may 2006-cı il tarixində keçirilmiş məhkəmə iclası barədə məlumatlandırılmaması ilə bağlı arqumentinə münasibət bildirmədi.

Sizcə, ərizəçi Konvensiyanın 5-ci maddəsi ilə hüquqlarının pozulduğunu iddia edə bilərmi?

*Hazırladı: Günel Sevdimalıyeva*